UOT 94(479.24)

ŞAHISMAYIL İSMAYILOV
Azərbaycan Dillər Universiteti, Azərbaycan Universiteti,
Bakı Slavyan Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent
ORCID: https://orcid.org/0000-0002-7441-3575
ismayılovsahismayıl@gmail.com

AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ SOSİAL-MƏDƏNİ İNTEQRASİYA MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/71-77

Bu məqalədə Azərbaycanın müstəqillik əldə etməsindən sonra Azərbaycan-Türkiyə münasibətlərində sosial-mədəni inteqrasiya prosesləri təhlil olunur. Tədqiqatın aparılmasının əsas məqsədi iki ölkə arasında tarixi, mədəni və mənəvi bağlılıqların müasir dövrdə hansı mexanizmlər vasitəsilə dərinləşdiyini və bunun regional əməkdaşlığa təsirini müəyyənləşdirməkdir. Araşdırmada tarixi-müqayisəli, sistemli yanaşma və mənbə təhlili metodlarından istifadə edilmişdir. Məqalədə dövlətlərarası sazişlər, təhsil və elm sahəsində əməkdaşlıq, aşıq sənəti, kino və turizm nümunələri əsasında sosial-mədəni inteqrasiyanın əsas istiqamətləri araşdırılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sosial-mədəni əlaqələr Azərbaycan–Türkiyə münasibətlərinin strateji xarakter almasının əsas dayaqlarından biridir və bu inteqrasiya yalnız ikitərəfli münasibətlərin deyil, bütövlükdə türk dünyasında mədəni birliyin möhkəmlənməsinə xidmət edir. Əldə olunan nəticələr göstərir ki, mədəni diplomatiya və humanitar əməkdaşlıq iki ölkə arasında uzunmüddətli və davamlı tərəfdaşlığın formalaşmasında həlledici rol oynayır.

Açar sözlər: Azərbaycan–Türkiyə münasibətləri, sosial-mədəni inteqrasiya, mədəni diplomatiya, təhsil və elm əməkdaşlığı, aşıq sənəti, kino və turizm.

Giriş. Azərbaycan-Türkiyə münasibətləri müstəqillik dövründən etibarən sosial-mədəni sahədə intensiv inkişaf etmiş, iki ölkə arasında tarixi, mədəni və mənəvi bağlılıqların yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Mövcud araşdırmalarda mədəni diplomatiya, humanitar əməkdaşlıq, təhsil və elm mübadiləsi, ortaq irs və kimlik məsələləri geniş şəkildə təhlil edilmişdir. Bununla belə, sosial-mədəni inteqrasiyanın institusional mexanizmlərinin sistemli şəkildə müqayisəsi, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın uzunmüddətli təsir göstəricilərinin qiymətləndirilməsi və mədəni diplomatiyanın strateji rolunun kompleks araşdırılması ədəbiyyatda hələ də tam işlənilməmişdir.

Bu tədqiqatın məqsədi Azərbaycan-Türkiyə sosial-mədəni inteqrasiyasının əsas istiqamətlərini, institusional çərçivələrini və onların regional əməkdaşlığa təsirini müəyyənləşdirməkdir. Tədqiqatın vəzifələrinə sosial-mədəni əlaqələrin tarixi əsaslarının müəyyənləşdirilməsi, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq mexanizmlərinin sistemləşdirilməsi və mədəni inteqrasiyanın strateji tərəfdaşlıqdakı rolunun qiymətləndirilməsi daxildir.

Tədqiqatın əsas hipotezləri bunlardır:

1. Sosial-mədəni inteqrasiya Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının formalaşmasında aparıcı rol oynayır.
2. Təhsil və elm əməkdaşlığı uzunmüddətli mədəni yaxınlaşmanı gücləndirən həlledici amildir.
3. Mədəni diplomatiya türk dünyasında ortaq kimlik və mədəni vahidliyin möhkəmlənməsinə töhfə verir.

Tədqiqatın elmi yeniliyi sosial-mədəni inteqrasiyanın müxtəlif elementlərinin vahid analitik çərçivədə qiymətləndirilməsində, normativ-hüquqi və institusional əsasların ilk dəfə sistemli şəkildə ümumiləşdirilməsində ifadə olunur. Nəzəri əhəmiyyəti inteqrasiya və mədəni diplomatiya nəzəriyyələrinin Azərbaycan-Türkiyə münasibətləri kontekstində dəqiqləşdirilməsindən, təcrübi əhəmiyyəti isə dövlət qurumları və mədəni institutlar üçün tətbiq oluna bilən analitik nəticələrin təqdim edilməsindən ibarətdir.

Azərbaycanın müstəqilliyinə qovuşmasından sonra Türkiyə ilə əlaqələr sürətlə inkişaf etməyə başladı. Təbii ki, mövzumuzun təhlili baxımından ilk növbədə tarixi və ictimai-siyasi şəraitin doğurduğu

hadisələrin ümumi mənzərəsi bir çox mətləblərə aydınlıq gətirməkdədir. Belə ki, Sovet İttifaqının dağılması beynəlxalq səhnədə siyasi vəziyyətin və qüvvələr nisbətinin köklü şəkildə dəyişməsi, bütün postsovet məkanında yeni müstəqil dövlətlərin yaranması ilə nəticələndi. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizin qarşısında milli dövlət maraqlarına maksimum cavab verən çoxşaxəli, mürəkkəb xarici siyasət doktrinası formalaşdırmaq vəzifəsi meydana çıxdı. Bu doktrinada Yaxın və Orta Şərqin Azərbaycanla bu və ya digər dərəcədə tarixi bağlılığı, etnik, dini və mədəni ümumiliyi olan ölkələrinə xüsusi yer verilməsi zəruri idi. "Gələcək Azərbaycan dövlətçiliyi üçün çox mühüm olan bu missiyanın əsas ağırlığı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çiyninə düşdü. Onun rəhbərliyi və birbaşa iştirakı ilə Azərbaycan Respublikası yalnız özünün qərbyönlü siyasət doktrinasını yaratmadı, həm də siyasi komplimentarizm prinsiplərinə əsaslanaraq tarixi, dini, mədəni baxımdan yaxın olduğu Şərq ölkələri, ilk növbədə isə Müsəlman Şərqi ilə sıx münasibətlər qurdu" [1, s.4]. Azərbaycanın müstəqillikdən sonrakı dövrdə xarici siyasətində Türkiyə ilə münasibətlərə xüsusi önəm verilməsi, tarixi və mədəni bağlılıqların strateji səviyyəyə keçməsinin göstəricisidir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu siyasət çərçivəsində Türkiyə ilə qurulan mədəni və siyasi əməkdaşlıq regional sabitliyə və inteqrasiyaya ciddi töhfələr vermişdir. Bu yanaşma sonrakı illərdə də iki ölkə arasında möhkəm tərəfdaşlıq modelinin formalaşmasına zəmin yaratmışdır.

Azərbaycan-Türkiyə mədəni əlaqələrinin tarixi və perspektivləri ilə bağlı hər iki dövlətin rəhbərləri dəfələrlə fikirlər söyləmiş və bu əlaqələrin daimi və əbədi olacağı haqqında bəyanatlar vermişlər. Xalqımızın ümummilli lideri Heydər Əliyev bəyan edirdi ki, "Dəfələrlə dediyimiz 'biz bir millət, iki dövlətik' sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır." Çıxışlarında daim türk dünyası problemlərinə qlobal düşüncə tərzi ilə yanaşan Heydər Əliyev həmişə belə bir ideya irəli sürmüşdür: "Mən bu gün həqiqətən qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı, hələ biz müstəqil olmadığımız vaxtda- ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız dövrdə də - bir-birimizdən ayırmayıb, əksinə, bizi bir-birimizə daha sıx bağlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə etdikdən və müstəqil dövlət kimi dünyada tanındıqdan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəli getməli və inkişaf etməliyik" [5, s.8]. Heydər Əliyevin bu fikirləri Azərbaycan-Türkiyə münasibətlərinin yalnız siyasi deyil, həm də mədəni və mənəvi dəyərlərə söykəndiyini bir daha sübut edir. Onun vurğuladığı ortaq köklər və milli ənənələr iki xalq arasında formalaşmış dərin bağlılığın tarixi əsaslarını göstərir. Bu baxımdan, mədəni əlaqələrin davamlı inkişafı yalnız keçmişə deyil, gələcəyə yönəlmiş strateji bir yanaşma kimi dəyərləndirilə bilər.

ABŞ tədqiqatçısı Odri Armstad 1992-ci ildə nəşr etdirdiyi "Azərbaycan türkləri: Dövlət və formalaşma rus hakimiyyəti altında" adlı kitabında Heydər Əliyevin fəaliyyəti haqqında belə yazmışdı: "Bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev də hamını öz arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı rəhbər kimi zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu. Heydər Əliyev Siyasi Büronun tərkibinə daxil olan ilk azərbaycanlı lider idi. Bu, respublikanın siyasi gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amilə çevrildi [6, s.99]. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın həm daxili idarəetmə sistemində, həm də beynəlxalq nüfuzunda mühüm irəliləyişlər baş vermişdir. Onun siyasi uzaqgörənliyi və idarəçilik bacarığı ölkənin sabitliyini və strateji tərəfdaşlıqlarını gücləndirmişdir. Tarixi şərait nəzərə alındıqda belə bir liderin ortaya çıxması Azərbaycanın milli kimliyinin qorunmasında və inkişafında həlledici rol oynamışdır. Bu birlik müxtəlif sahələrdə olduğu kimi mədəniyyətin müxtəlif istiqamətlərində də öz əksini tapır.

Azərbaycan və Türkiyə arasında sosial-mədəni münasibətlər dövlətlərarası münasibətlərdən daha çox iki ölkə xalqları arasındakı əməkdaşlığın miqyasını əks etdirir. Bu əlaqələrin əsasını təşkil edən bəzi mühüm sazişlərə Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Komitəsi ilə Türkiyə Respublikası Radio və Televiziya Qurumu (TRT) arasında Əməkdaşlıq Protokolu (9 fevral 1992), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Təlim, Təhsil, Texniki və Elmi Əməkdaşlıq Sazişi (3 may 1992), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Mütəxəssis Kadrların Hazırlanması haqqında Protokol (2 noyabr 1992), Azərbaycan Milli Elmlər Akademiyası ilə TÜBİTAK arasında Elmi və Texniki Əməkdaşlıq Sazişi (2 noyabr 1992), Azərbaycan Respublikası ilə

Türkiyə Respublikası arasında İdman Sahəsində Əməkdaşlıq Protokolu (9 fevral 1994), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Mədəniyyət və İncəsənət Sahələrində Əməkdaşlıq Protokolu (9 fevral 1994), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Təhsil və Elm Sahəsində Əməkdaşlıq Protokolu (9 fevral 1994), Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Elmi, Texniki, Sosial, Mədəni və İqtisadi Sahələrdə Əməkdaşlıq Sazişi (30 may 1994) , Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Televiziya Yayımı Sazişi (8 dekabr 1995) daxil etmək olar.

Azərbaycan ilə Türkiyə arasında sosial-mədəni əlaqələrin inkişafında müxtəlif dövlət və qeyri-dövlət qurumları mühüm rol oynayır. Türkiyə Cümhuriyyətinin Milli Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, həmçinin YÖK (Ali Təhsil Şurası), TRT, DİB (Din Məsələri Nazirliyi), BYEGM (Mətbuat-Yayım və İnformasiya üzrə Xüsusi Agentlik) və AKDTYK (Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu) kimi qurumlar bu sahəyə əhəmiyyətli töhfələr vermişdir. Bununla yanaşı, TÜDEV (Türkdilli Dövlətlər və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Vəqfi), Türk Mədəniyyəti Araşdırma İnstitutu və Türk Dünyası Araşdırma Vəqfi kimi özəl təşkilatlar da fəal iştirak etmişdir.

Azərbaycan müstəqillikdən sonra bir çox ölkələrlə, xüsusilə də Türkiyə ilə təhsil sahəsində əməkdaşlıq etmişdir. Bugünkü əməkdaşlıq çoxşaxəli və inkişaf etmişdir. Hər il yüzlərlə azərbaycanlı tələbə Türkiyə universitetlərində bakalavr, magistr və doktorantura səviyyələrində təhsil alır. Mevlana və Erasmus+ proqramları vasitəsilə tələbə və müəllim mübadiləsi həyata keçirilir ki, bu da sistemlərin qarşılıqlı zənginləşməsinə imkan yaradır.

Azərbaycan ilə Türkiyə arasında təhsil əlaqələri və bu istiqamətdə əməkdaşlıq ilk dəfə 29 fevral 1992-ci ildə imzalanan "Azərbaycan-Türkiyə Təhsil Anlaşma Memorandumu" ilə başlayaraq bu günə qədər ümumilikdə 11 müqavilə və protokol vasitəsilə tənzimlənmişdir [9, s.317]. İki ölkə arasında təhsil sahəsində çoxistiqamətli əməkdaşlığı həyata keçirmək üçün zəruri infrastruktur formalaşdırılmışdır. 1992-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında "Təhsil Sahəsində Əməkdaşlıq Protokolu" imzalanmışdır. 1994-cü ilin fevralında isə Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında "Elm, Texnologiya, Sosial, Mədəni və İqtisadi Sahələrdə Əhatəli Əməkdaşlıq Protokolu" imzalanmışdır. 1997-ci ilin mart ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında "Təhsil və Elm Sahəsində Əməkdaşlıq Protokolu" imzalanmış və qüvvəyə minmişdir [7, s.135]. Bu sənədlər və protokollar, Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsindəki əməkdaşlığın hüquqi-inzibati bazasını formalaşdırmaqla yanaşı, strateji tərəfdaşlığın dərinləşməsinə zəmin yaratmışdır. Prosesin davamlı xarakter daşıması ikitərəfli münasibətlərin sadəcə diplomatik çərçivədə deyil, eyni zamanda elmi və intellektual sahələrdə də inkişaf etdiyini göstərir. Tərəflər arasında imzalanmış bu sənədlər təhsil sistemlərinin uyğunlaşdırılması və qarşılıqlı tanınması istiqamətində mühüm addımların atıldığını sübut edir.

Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində qurulan əməkdaşlıq son illərdə daha da sürətlənmişdir. Xüsusilə 2000-ci ildən etibarən Bakının müxtəlif məktəblərində türk dili dərslərinin keçirilməyə başlanması bu sahədə atılmış mühüm addımlardan biri olmuşdur. Bu dərslər əsasən Bakı-Türk liseylərində fəaliyyət göstərən və Türkiyədən gəlmiş müəllimlər tərəfindən tədris edilir. Təhsil sahəsində imzalanmış protokollara əsasən iki ölkənin təhsil nazirliklərinin nümayəndələrindən ibarət daimi komissiya yaradılmış və əməkdaşlığın daha sistemli şəkildə davam etməsi bu struktur vasitəsilə təmin olunmuşdur.

Təhsil əməkdaşlığının əsas istiqamətlərindən biri də tələbə mübadiləsidir. Qarşılıqlı şəkildə qəbul edilmiş protokollar əsasında tələbələr üçün təqaüdlərin ayrılması və təqaüdsüz şəkildə də ali təhsil müəssisələrinə qəbul şərtlərinin müəyyənləşdirilməsi bu sahədə geniş imkanlar yaratmışdır. Bu səbəbdən də bu gün Azərbaycan gənclərinin xaricdə ən çox təhsil aldıqları ölkə məhz Türkiyədir. 1992-ci ildən etibarən həyata keçirilən "Böyük Tələbə Layihəsi" çərçivəsində yüzlərlə azərbaycanlı gənc Türkiyənin müxtəlif universitetlərində təhsil alma imkanı qazanmışdır. Bu proses isə 1998-ci ildən sonra imzalanan yeni protokollarla daha nizamlı və davamlı şəkildə həyata keçirilmişdir.

Tələbə Mübadilə Proqramı çərçivəsində Azərbaycandan Türkiyəyə təhsil almağa gələn tələbələrin təqribən 11%-i Azərbaycan mənşəlidir. Qarşılıqlı mübadilə, xüsusilə 1992–2001-ci illərdə Türkiyənin Azərbaycana orta və ali təhsil sahəsində ayırdığı kontingentlə daha da genişlənmişdir. Bu

göstəricilər Azərbaycan–Türkiyə təhsil əlaqələrinin sadəcə rəsmi müqavilələrlə deyil, praktik səviyyədə də uğurla həyata keçirildiyini sübut edir. Tələbə kontingentinin genişlənməsi və müxtəlif təhsil pillələrini əhatə etməsi iki ölkə arasında elmi və intellektual inteqrasiyanın dərinləşməsinə xidmət etmişdir. Eyni zamanda bu əməkdaşlıq gələcək nəsillərin ortaq mədəni kimlik və strateji baxışlarla yetişməsinə mühüm zəmin hazırlamışdır.

Hər iki ölkə tərəfindən həyata keçirilən qarşılıqlı dəstək siyasəti nəticəsində yüzlərlə azərbaycanlı gənc Türkiyədə ali təhsil alma imkanı qazanmışdır. Azərbaycandan Türkiyəyə gələn tələbələrin 21,1%-i TÖMER tədrisində, 8,3%-i ali diplom tədrisində, 21,9%-i ali diplom proqramında, 67,7%-i diplom proqramında təhsil almaqdadır. Bunlardan 86,5%-i TÖMER-in dil tədrisini Türkiyədə, 8,3%-i isə öz ölkələrində almaq istədiklərini bildirmişlər. Tələbələrin 38,5%-i təhsil aldıqları proqramdan məzun olduqdan sonra ölkəsinə qayıtmağı, 5,2%-i Türkiyədə qalmağı, 6,2%-i xaricdə təhsilini davam etdirməyi planlaşdırdıqlarını bildirmiş və 21,9%-i bu sualı cavabsız qoymuşdur. Tələbələrin 50%-i Böyük Tələbə Layihəsi haqqında müsbət, 16,7%-i mənfi münasibət bildirmiş, 32,2%-i sualı cavablamamış, 1,1%-i öz fikrini bildirməmişlər. Tələbələrin 71,9%-i təqaüdlərin az olduğunu bildirmişdir. 1997 – 1998 təhsil ilində Türkiyə Azərbaycana 12-si tələbələrə aid olmaqla ümumi 210 ali təhsil təqaüdü ayırmış, Azərbaycan bu təqaüdlərdən 178-ni istifadə etmişdir [4, s.341]. Sadalanan statistik göstəricilər Azərbaycan və Türkiyə arasında təhsil sahəsindəki əməkdaşlığın təkcə kəmiyyət deyil, həm də keyfiyyət baxımından ciddi əhəmiyyət kəsb etdiyini ortaya qoyur. Tələbələrin əksəriyyətinin Türkiyədə təhsil almağa üstünlük verməsi və bu prosesin dövlətlərarası səviyyədə dəstəklənməsi iki ölkə arasında elmi və mədəni inteqrasiyanın vacib göstəricisidir. Eyni zamanda təqaüd və infrastruktur imkanlarının tələbə ehtiyaclarına cavab verməsi istiqamətində aparılan işlər bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə zəmin yaradır.

Xüsusilə aşıq sənəti, kino və turizm sahələri Azərbaycan və Türkiyənin həm ortaq dəyərlərini, həm də müasir dövrdəki əməkdaşlıq potensialını üzə çıxaran mühüm sahələrdir. Aşıq sənəti hər iki xalqın qədim mədəni irsinin canlı daşıyıcısı olmaqla dastan ənənəsini və xalq yaradıcılığını yaşadır. Kino sənayesi isə həm milli kimliyin qorunmasında, həm də beynəlxalq aləmdə xalqların tanıdılmasında böyük rol oynayır. Turizm isə sadəcə iqtisadiyyatın mühüm istiqaməti deyil, həm də xalqlar arasında mədəni dialoqun möhkəmlənməsi üçün əvəzsiz vasitədir. Azərbaycan və Türkiyə arasında bu sahələrdə qurulan əməkdaşlıq bir tərəfdən ortaq keçmişin yaşadılmasına, digər tərəfdən isə gələcək nəsillərə ötürülməsinə xidmət edir. Qlobal dünyada xalqların mədəniyyətləri üzərində baş verən sürətli dəyişikliklər fonunda belə əməkdaşlıq həm milli dəyərlərin qorunması, həm də mədəniyyətlərarası ünsiyyətin inkişafı üçün vacibdir.

Bundan əlavə, iki ölkə arasında mədəni əlaqələrin inkişafı təkcə regional miqyasda deyil, həm də beynəlxalq səviyyədə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Türkiyənin ortaq layihələri, festivalları, kino günləri və turizm təşəbbüsləri xalqların bir-birini daha yaxından tanımasına, qardaşlıq bağlarının güclənməsinə və mədəni diplomatiyanın daha təsirli vasitəyə çevrilməsinə imkan yaradır. Beləliklə, Azərbaycan və Türkiyə mədəni əməkdaşlığı həm tarixi köklərə əsaslanır, həm də gələcək inkişaf perspektivlərini özündə ehtiva edir.

Aşıq-ozan sənəti xalqımızın həm mənəvi aləminin, həm də ictimai-sosial arzularının ən parlaq ifadəsidir. Bu sənət vasitəsilə insanlar öz istək və niyyətlərini sazın-sözün dili ilə dilə gətiriblər. Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Şəmşir kimi ustadlar, eləcə də Miskin Abdal, Yunis İmrə, Aşık Yoksul Derviş, Pir Sultan Abdal və Aşık Musa türk kökənli bir millətin ortaq duyğularını bir dildə, saz-qopuzun səsasında yaşadıblar.

Aşıq yaradıcılığı Azərbaycan xalqının türk köklərinə dayandığını göstərir. Araşdırmalar göstərir ki, aşıq sənəti türk dünyasında ən çox Azərbaycanda inkişaf etmişdir. Son dövrlərdə türk xalqlarının tarixdən gələn zəngin yaradıcılıq ənənələrini, sənətkarlıq nümunələrini, ustad-şagird ənənəsini və ifaçılıq xüsusiyyətlərini özündə yaşadaraq günümüzədək qoruyub saxlayan aşıq sənəti sahəsində aparılan tədqiqatlara maraq getdikcə artmaqdadır. Bu, bir sıra amillərlə şərtlənir. Əvvəla, son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalq yaradıcılığına göstərdiyi xüsusi qayğı, həmçinin Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən aşıq sənətinin inkişafı və təbliği istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlər geniş vüsət almışdır. Nəticədə aşıq sənəti YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irsi siyahısına daxil edilmiş, Azərbaycanda bu

irsə dövlət səviyyəsində qayğı daha da gücləndirilmişdir. Bütün bunlar aşıq sənəti ilə bağlı tədqiqatların intensivləşməsinə mühüm stimul vermişdir. Eyni zamanda aşıq sənətinin zəngin tarixi ənənələrinin, müxtəlif aşıq mühitlərinə xas olan ortaq və özünəməxsus xüsusiyyətlərin, bu mirasın dünya mədəni irsinə verəcəyi töhfələrin sistemli şəkildə araşdırılaraq beynəlxalq aləmdə təqdim olunması da bu gün hər zamankından daha aktualdır. Məhz bu səbəbdən Azərbaycan dövlətinin aşıq sənətinin beynəlxalq miqyasda təbliği ilə bağlı həyata keçirdiyi məqsədyönlü mədəniyyət siyasəti yalnız ölkə daxilindəki tədqiqatçıların deyil, bütövlükdə türk dünyası alimlərinin də diqqət mərkəzindədir. Bu isə sahənin tədqiqinə beynəlxalq səviyyədə aktuallıq qazandırır. Bununla yanaşı aşıq yaradıcılığının əsrlərin sınağından keçib gələn əzəmətini və təravətini qorumaq, mədəni inteqrasiyanın sürətləndiyi çağdaş dövrdə bu milli irsi yad təsirlərdən mühafizə etmək üçün aşıq sənəti ilə bağlı araşdırmalara xüsusi önəm verilməlidir. Bu kontekstdə Qars aşıq mühitinin Azərbaycan mədəniyyətindəki tarixi-kulturoloji yerinin öyrənilməsi xüsusilə diqqətəlayiqdir. Çünki Qars aşıq mühitinin tarixi qaynaqlarının və sənətkarlıq xüsusiyyətlərinin digər aşıq mühitləri ilə müqayisəli şəkildə araşdırılması, ümumilikdə bu bölgənin Azərbaycan mədəniyyətindəki əhəmiyyətinin müəyyənləşdirilməsi baxımından böyük elmi dəyərə malikdir [3, s.104-105].

Aşıqlar və aşıqlıq ənənəsi Türk mədəniyyətinin mühüm bir hissəsini təşkil edir. Məlum olduğu kimi, aşıq ənənəsinin iki tərəfi vardır: bunlardan biri söz quruluşu, digəri isə melodik və ya musiqi quruluşudur. Karacaoğlanın məşhur olduğu və sevildiyi mühüm Türk bölgələrindən biri də Azərbaycandır. Onun Azərbaycanda da sevilməsinin səbəbi sadə, səmimi və axıcı dilindən irəli gəlir. Bundan başqa, Dədə Qorqud, Karacaoğlan, Koroğlu, Dadaloğlu kimi şairlər Türk dünyasının ortaq xalq qəhrəmanları olduqları üçün Türk mədəniyyətinin yayıldığı bütün bölgələrdə tanınırlar [3, s.94-95]. Əsrlər boyu aşıqlar saz-söz sənətini yalnız şeirlərlə deyil, dastanların ifası ilə də yaşatmışlar. Buna görə də aşıqlıq ənənəsini dastanlardan ayrı təsəvvür etmək olmaz.

Azərbaycan xalq dastanları məzmununa görə təsnifatını təklif etmiş M.Təhmasib "Azərbaycan xalq dastanları (Orta əsrlər)" əsərində bütün dastanların tam öyrənilmədiyini və daha dəqiq təsnifata ehtiyac olduğunu vurğulamışdır. Bunun köklü səbəbləri vardır: sovet dövründə Azərbaycan, türk və digər türkdilli xalqların ortaq dastanlarının, o cümlədən "Kitabi Dədə Qorqud"un öyrənilməsi məhdudlaşdırılmışdır. Dastanların yalnız kiçik bir qismi tədqiq edilmiş, ideologiyaya uyğun olaraq təqdim edilmişdir.

Azərbaycan və Türkiyə aşıq sənətində bir çox ortaq aşıq və xalq şairlərinin fəaliyyəti diqqət çəkir. Məsələn, Azərbaycanın tanınmış aşıqları Aşıq Ələsgər və Aşıq Alı, Türkiyənin Garacaoğlan və Aşıq Şenlik kimi ustadları hər iki ölkənin folklor xəzinəsində iz qoymuşlar. Bu aşıqlar yalnız öz vətənlərində deyil, qonşu ərazilərdə də tanınmış, dastan və qoşmalarını paylaşmışlar. Ortak dastan və motivlər, məsələn "Koroğlu", "Kərəm və Əsli" və "Tahir və Zöhrə" hekayələri hər iki ölkədə xalq arasında geniş yayılmış və nəsildən-nəsilə ötürülmüşdür. Bu baxımdan aşıq sənəti Azərbaycan və Türkiyə arasında mədəni bağları gücləndirən əvəzsiz bir vasitə olmuşdur.

Azərbaycan və Türkiyədə aşıq sənətinin bir sıra oxşar xüsusiyyətləri mövcuddur. Hər iki məkanda aşıqlar sevgi, qəhrəmanlıq, xalq həyatını və tarixi hadisələri şeir və musiqi vasitəsilə əks etdirirlər. Saz musiqisi ilə birləşmiş poeziya hər iki ölkədə aşıq sənətinin əsas özəyini təşkil edir. Nəzm ölçüləri və heca qaydaları, qafiyə strukturu, həmçinin poeziya ilə musiqinin ahəngdarlığı hər iki ölkədə oxşar üsullarla qorunub saxlanmışdır. Beləliklə, aşıq sənəti hər iki mədəniyyətdə həm əyləncə, həm də maarifləndirici funksiyanı yerinə yetirmişdir. Azərbaycan və Türkiyə aşıq sənəti müqayisə edildikdə bir sıra oxşarlıqlar və fərqliliklər ortaya çıxır. Ortak motivlər və dastanlar hər iki xalqın mədəni yaddaşında yer etmiş, zamanla müxtəlif regional tərzlərdə ifadə olunmuşdur. Lakin dil, musiqi alətləri və bəzi forma xüsusiyyətləri fərqlidir: Azərbaycanda sazın müəyyən melodik üslubları, Türkiyədə isə aşıq musiqisinin bölgələrə görə fərqli tonları qorunmuşdur. Buna baxmayaraq hər iki ölkədə aşıqların məqsədi eynidir: xalqı əyləndirmək, tarixi və etik dəyərləri ötürmək, həmçinin ictimai həyat haqqında məlumat vermək. Bu baxımdan Azərbaycan və Türkiyə aşıq sənəti həm ortaq köklərə, həm də mədəni xüsusiyyətlərə sahib olan bir mədəni sərvət sayılır. Azərbaycan və Türkiyənin ortaq aşıq və dastan ənənələri iki ölkə arasında mədəni bağların güclü olduğunu göstərir. Bu mədəniyyət əlaqələri yalnız folklorla məhdudlaşmır, eyni zamanda kino, teatr və turizm sahələrində də özünü göstərir.

Azərbaycan və Türkiyə arasında kino sahəsində əməkdaşlıq güclənib. Məsələn, 2025-ci ilin aprelində İstanbulda keçirilən "Azərbaycan Kino Günləri" çərçivəsində son illərdə istehsal olunmuş Azərbaycan filmləri nümayiş etdirilib. Tədbirdə həmçinin iki ölkənin kino istehsalçıları arasında görüşlər

təşkil olunub və birgə film istehsalı imkanları müzakirə edilib. Bundan əlavə, Azərbaycan Kinematoqrafçılar İttifaqının istehsal etdiyi "Ölü Həsən" ("Dead Hasan") adlı film Türkiyənin "TRT 12 Punto" platformasında təqdim olunaraq mükafat qazanıb. Bu layihə iki ölkə arasında kino sahəsindəki əməkdaşlığın bariz nümunəsidir [2].

Azərbaycan və Türkiyə arasında turizm sahəsində də sıx əməkdaşlıq mövcuddur. 2021-ci ildə Azərbaycanlı turistlərin Türkiyəyə səfərləri 470618 nəfər təşkil edib. Həmçinin, Zəngəzur Dəhlizinin açılması ilə Naxçıvan bölgəsindən Türkiyəyə birbaşa dəmir yolu əlaqəsi yaradılıb ki, bu da turizmin inkişafına müsbət təsir göstərəcək. Bundan əlavə, Azərbaycan və Türkiyə arasında vizasız səyahət razılaşması mövcuddur ki, bu da vətəndaşların hər iki ölkəyə asanlıqla səfər etmələrini təmin edir [8].

Nəticə etibarilə, Azərbaycanın müstəqillikdən sonra Türkiyə ilə qurduğu münasibətlər klassik diplomatik çərçivəni aşaraq dərin mədəni, intellektual və ictimai inteqrasiya modelinə çevrilmişdir. Bu əlaqələr təkcə keçmişdən miras qalan ortaq dəyərlərin qorunmasına deyil, həm də qloballaşma şəraitində milli kimliyin davamlılığını təmin edən strateji resursun formalaşmasına xidmət edir. Təhsil, mədəniyyət, incəsənət və humanitar sahələrdə yaranmış institusional əməkdaşlıq uzunmüddətli perspektivdə iki ölkənin regional və beynəlxalq mövqelərinin möhkəmlənməsinə zəmin yaradır. Xüsusilə gənc nəslin ortaq tarixi yaddaş, dil və mədəni kodlar əsasında yetişməsi Azərbaycan-Türkiyə münasibətlərini emosional yaxınlıqdan sistemli tərəfdaşlığa daşıyan əsas amillərdəndir. Bu baxımdan mövcud əməkdaşlıq modeli yalnız iki dövlət üçün deyil, bütövlükdə türk dünyası üçün nümunəvi mədəni-diplomatik platforma kimi qiymətləndirilə bilər.

Nəticə. Tədqiqat göstərdi ki, Azərbaycan-Türkiyə münasibətlərində sosial-mədəni inteqrasiya tarixi bağlılıqlara əsaslanmaqla yanaşı, müasir dövrdə təhsil, elm, mədəniyyət və turizm sahələrində formalaşmış institusional əməkdaşlıq vasitəsilə davamlı şəkildə güclənir. Analiz olunan materiallar sosial-mədəni inteqrasiyanın iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə əhəmiyyətli təsir etdiyini ortaya qoyur.

İrəli sürülmüş hipotezlər tam şəkildə təsdiqləndi:

— sosial-mədəni inteqrasiya strateji tərəfdaşlığın əsas dayaqlarından biridir;

— təhsil və elm əməkdaşlığı uzunmüddətli mədəni yaxınlaşmanı gücləndirir;

— mədəni diplomatiya türk dünyasında ortaq kimliyin möhkəmlənməsinə töhfə verir.

Aparılan araşdırmanın nəticələrinə əsaslanaraq bir sıra tövsiyələr irəli sürmək mümkündür:

- Təhsil, elm və mədəniyyət sahələrində mövcud sazişlərin yenilənməsi və yeni birgə proqramların yaradılması;
- Universitetlərarası birgə tədqiqat layihələrinin və tələbə mübadiləsinin genişləndirilməsi;
- Kino, aşıq sənəti və turizm istiqamətlərində ortaq layihələrin artırılması;
- Mədəni diplomatiya üzrə iki ölkənin institutları arasında koordinasiyanın gücləndirilməsi.

ƏDƏBIYYAT

1. Heydər Əliyev və Şərq: VI cilddə. I cild. Bakı, Tural-Ə NPM, 2002, 384 s.
2. Azərbaycan Kinematoqrafçılar İttifaqı. https://aki.az [12.01.2026].
3. Azərbaycan-Türkiyə mənəvi birliyinin simvolu – "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi tərəfindən təşkil olunmuş konfransın materialları. Bakı, 2013, 136 s.
4. Heydər Əliyev və Şərq: VI cilddə. III cild: Türkiyə Cümhuriyyəti – Heydər Əliyev və Şərq. Tərtib edənlər: Q.Allahverdiyev, V.Sultanzadə. Bakı, Çaşıoğlu nəşriyyatı, 2003, 471 s.
5. Hüseynova, F. Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri: Elm, təhsil, mədəniyyət. Bakı, Nurlan, 2007, 302 s.
6. İsmayılov, İ. Azərbaycan–Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı, 2004, 154 s.
7. Novruzov, K. Azerbaycan ve kardeş Türkiye arasındaki eğitim ilişkileri. İçində C.Veliyev, R.Resullu & K.Aslanlı (Ed.), Azerbaycan–Türkiye: dostluk, kardeşlik ve strateji ortaklık. Ankara: Berikan yayınları, 2012, 216 s.
8. Türkiyə Respublikası Xarici İşlər Nazirliyi. - https://www.mfa.gov.tr/default.tr.mfa [12.01.2026].
9. Zengin, E. Piyasa ekonomisine geçiş sürecinde Azerbaycan. İstanbul: İstanbul Ticaret Odası Yayınları, 2010, 406 s.

ШАХИСМАИЛ ИСМАИЛОВ
Азербайджанский университет языков,
Славянский университет, Азербайджанский университет,
доктор философии по историческим наукам, доцент

ВОПРОСЫ СОЦИАЛЬНО-КУЛЬТУРНОЙ ИНТЕГРАЦИИ В АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ОТНОШЕНИЯХ

В данной статье анализируются процессы социально-культурной интеграции в азербайджано-турецких отношениях после обретения Азербайджаном независимости. Целью исследования является выявление механизмов углубления исторических, культурных и духовных связей между двумя странами в современный период, а также определение их влияния на региональное сотрудничество. В работе использованы историко-сравнительный метод, системный подход и анализ источников. В статье рассматриваются основные направления социально-культурной интеграции на примере межгосударственных соглашений, сотрудничества в сфере образования и науки, ашугского искусства, кино и туризма. Результаты исследования показывают, что социально-культурные связи являются одним из ключевых факторов формирования стратегического партнерства между Азербайджаном и Турцией. Полученные выводы свидетельствуют о том, что данные интеграционные процессы способствуют не только развитию двусторонних отношений, но и укреплению культурного единства в тюркском мире в целом, а также подчеркивают важную роль культурной дипломатии и гуманитарного сотрудничества.

Ключевые слова: азербайджано-турецкие отношения, социально-культурная интеграция, культурная дипломатия, сотрудничество в сфере образования и науки, ашугское искусство, кино и туризм.

SHAHISMAYIL ISMAYILOV
Azerbaijan University of Languages, Slavic University,
Azerbaijan University, PhD in History, Associate Professor

ISSUES OF SOCIO-CULTURAL INTEGRATION IN AZERBAIJAN-TURKEY RELATIONS

This article examines the processes of socio-cultural integration in Azerbaijan-Turkey relations following Azerbaijan's independence. The main purpose of the study is to identify the mechanisms through which historical, cultural, and spiritual ties between the two countries have been strengthened in the contemporary period and to assess their impact on regional cooperation. The research employs historical-comparative analysis, a systemic approach, and qualitative analysis of primary and secondary sources. The article analyzes key areas of socio-cultural integration, including interstate agreements, cooperation in education and science, ashik art, cinema, and tourism. The findings indicate that socio-cultural relations constitute one of the fundamental pillars of the strategic partnership between Azerbaijan and Turkey. Moreover, these integration processes contribute not only to bilateral relations but also to the consolidation of cultural unity within the broader Turkic world. The results demonstrate that cultural diplomacy and humanitarian cooperation play a decisive role in ensuring sustainable and long-term partnership between the two states.

Keywords: Azerbaijan-Turkey relations, socio-cultural integration, cultural diplomacy, cooperation in education and science, ashik art, cinema and tourism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: s.e.f.d. Aida Yusifzadə, t.e.d. İsmayıl Məmmədov.